**UOT 37.0**

***Lətifə Qəribağa qızı Cəlilova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan RespublikasınınTəhsil İnstitutu*

# SƏRİŞTƏYÖNLÜ YENİ MƏZMUNUN ŞAGİRDLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA YERİ

***Летифа Гарибага гызы Джалилова***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# МЕСТО КОМПЕТЕНТНОСНОГО НОВОГО СОДЕРЖАНИЯ В ФОРМИРОВАНИИ УЧАЩИХСЯ КАК ЛИЧНОСТЕЙ

***Latifa Garibagha Jalilova***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Azerbaijan Republic*

# THE PLACE OF COMPETENT NEW CONTENT IN THE FORMATION OF STUDENTS AS INDIVIDUALS

**Xülasə.** Məqalədə hafizə məktəbindən təfəkkür məktəbinə keçidin şagird şəxsiyyətinin formalaşmasındakı rolundan danışılır. Bu baxımdan təhsilin məzmununun formalaşdırılmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi ön plana çəkilir. Yeni yaranmış təfəkkür məktəbi şagirdlərin səriştəlilik səviyyəsini yüksəltməklə onlarda idraki qabiliyyətlər, hissi-emosional, psixomotor keyfiyyətlər formalaşdırmağı qarşıya ciddi vəzifə kimi qoyur. Riyaziyyat şəxsiyyətin ümumi inkişafına müsbət təsir göstərməklə yanaşı, onun xarakterinin formalaşmasına, mənəvi keyfiyyətlərinin inkişafına da təsir göstərir. Bir sözlə riyaziyyatın həyati əhəmiyyətli bir fənn kimi səriştəyönlü məzmununun müəyyənləşdirilməsi və düzgün tədrisi bu gün təhsilimizin qarşısında duran əsas problem olduğu qeyd olunur.

***Açar sözlər:*** *yaddaş məktəbi, təfəkkür məktəbi, səriştəlilik, fəaliyyət, mühakimə, dərketmə, təcrübə, tətbiq etmək, şəxsiyyətyönlü, düzgünlük, doğruçuluq, dözümlülük, vətənpərvərlik*

**Резюме.** В статье рассматривается роль перехода от школы памяти к школе мышления в формировании личности школьника. С этой точки зрения, наряду с академическими знаниями, в формировании содержания образования важны практические знания и умения. Вновь созданная школа мышления ставит серьезную задачу по развитию познавательных способностей, эмоциональных и психомоторных качеств учащихся путем повышения уровня их компетентности. Помимо положительного влияния на общее развитие личности, математика влияет и на формирование его характера, на развитие его нравственных качеств. Вкратце отмечается, что определение грамотного содержания и правильного преподавания математики как жизненно важного предмета является основной проблемой, стоящей сегодня перед нашим образованием.

***Ключевые слова:*** *школа памяти, школа мышления, компетентность, действие, суждение, понимание, опыт, применение, личностно-ориентированность, честность, правдивость, толерантность, патриотизм*

**Summary.** The article discusses the role of the transition from memory school to the school of thinking in the formation of student personality. From this point of view, along with academic knowledge, practical knowledge and skills are important in shaping the content of education. The newly established school of thinking sets a serious task to develop students' cognitive abilities, emotional and psychomotor qualities by raising their level of competence. In addition to having a positive effect on the overall

development of the individual, mathematics also affects the formation of his character and the development of his moral qualities. In short, it is noted that the definition of competent content and proper teaching of mathematics as a vital subject is the main problem facing our education today.

***Key words:*** *school of memory, school of thinking, competence, action, judgment, understanding, experience, application, personality-oriented, honesty, truthfulness, tolerance, patriotism.*

Uzun illər hafizə məktəbi insanların xidmətində olmuş, əsrlər boyu onların inkişaflarını şərtləndirmişdir. Yaddaş məktəbinin mahiyyətində akademik biliklər vermək, şagirdləri öyrəndiklərinin həcminə görə dəyərləndirmək üstün yer tutmuşdur. Bu gün sosial mühit dəyişmiş, insanların düşüncə, idrak bacarıqlarına, yaradıcılıq qabiliyyətlərinə ehtiyac yaranmışdır [4].

Bu da tarixi reallıqdır ki, son 30-40 ildə dünyada baş verən elmi-texniki tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində təcrübi bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşdırılmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi ön plana çəkilir. Səriştə təhsilalanın təlim prosesində qazandığı bilik və bacarıqları praktik fəaliyyətdə səmərəli şəkildə tətbiq etmək qabiliyyətidir. O, şəxsin (fərdin) qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Bu mənada səriştəyə əsaslanan nəticəyönlü təhsil sosial-iqtisadi inkişafa daha səmərəli xidmət göstərir.

Yeni yaranmış təfəkkür məktəbi şagirdlərin səriştəlilik səviyyəsini yüksəltməklə onlarda idraki qabiliyyətlər, hissi-emosional, psixomotor keyfiyyətlər formalaşdırmağı qarşıya ciddi vəzifə kimi qoyur. Bununla yanaşı, şagirdlərin yaşamağa, yaratmağa, kreativ fəaliyyətlə məşğul olmağa marağını artırır. Odur ki, Dövlət Strategiyasında “Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması” əsas istiqamət kimi göstərilir [1].

“Təlimə müasir baxışlar konstruktivist və situativ təlim konsepsiyalarına əsaslanır. Bilik, əsasən, sabit obyekt kimi qəbul olunmur, o, fərdin obyektə dair təcrübələri əsasında formalaşdırılır. Konstruktivist baxışa görə, təlim konstruktiv prosesdir və bu proses zamanı şagird biliyin daxili mənzərəsini, yəni təcrübənin şəxsi interpretasiyasını yaradır. Bu cür təsvir davamlı olaraq dəyişikliyə açıqdır, onun strukturu və əlaqələndirilməsi digər bilik strukturları üçün əsas təşkil edir. Təlim elə bir aktiv prosesdir ki, onun mənası təcrübə əsasında tamamlanır."[2]. Qeyd edilən bu konsepsiyalar birbaşa səriştəyönlü təlim məzmunu ilə səsləşir.

Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdən biridir. Qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində riyaziyyatın öyrənilməsinə xüsusi diqqət yetirilir. Bu, şəxsiyyətin formalaşmasında riyaziyyatın müstəsna rolu ilə izah olunur. Riyaziyyat zehni inkişafın əvəzedilməz bir vasitəsidir. Riyaziyyat məntiqi təfəkkürün formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəlməsində müstəsna rol oynayır. Riyazi məşğələlər şagirdlərin məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, fəza təsəvvürlərini inkişaf etdirir.

Riyaziyyat şəxsi keyfiyyətlərin formalaşmasında mühüm vasitədir. Riyaziyyat şəxsiyyətin ümumi inkişafına müsbət təsir göstərməklə yanaşı, onun xarakterinin formalaşmasına, mənəvi keyfiyyətlərinin inkişafına da təsir göstərir. Çoxlu riyazi məsələlərin tam həllini tapmaq üçün kifayət qədər uzun və bir çox hallarda şaxələnmiş yollarla getmək lazım gəlir. Alınan nəticənin doğruluğunun yoxlanılmasının və həllinin əsaslandırılmasının obyektiv meyarları olduğundan səhvi gizlətmək qeyri-mümkün olur. Riyaziyyat intellektual dürüstlüyün, obyektivliyin, inadkarlığın və əməksevərliyin formalaşmasına da şərait yaradır.

Bir sözlə riyaziyyat şəxsiyyətin düzgün formalaşmasına təsir edən əsas fənlər sırasına daxildir. Bu səbəbdən də riyaziyyat kursunun təməli qoyulan təlimin ibtidai mərhələsində tədris kor-koranə, əzbərçilik əsasında deyil, şüurlu, həyatla əlaqəli şəkildə mənimsənilməlidir. Şagirdə anlatmaq lazımdır ki, riyaziyyat onu həyatın bütün sahələrində müşayiət edir.

İbtidai təhsil səviyyəsində şagirdlərin hesab əməllərini yerinə yetirmələri, yazılı və şifahi hesablama alqoritmlərinə yiyələnmələri, ədədi ifadələri hesablamağı, mətnli məsələləri həll etmələri, ilkin ölçmə vərdişlərinə, fəza və həndəsi təsəvvürlərə malik olmaları, verilmiş məlumatları təsnif etmələri təmin olunur, onlarda riyazi

bilikləri gündəlik həyatda tətbiq etmək vərdişləri formalaşır.

Nəticəyönlü məzmun standartları əsasında hazırlanmış müasir təhsil proqramı standartların mənimsənilməsini təmin etmək üçün şagird nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini nəzərdə tutur və məzmun standartları müəyyən edilərkən şagird nailiyyətləri üzrə irəliləyişlərin sürətinin getdikcə artırılmasını əsas məqsəd kimi qarşıya qoymaqla, şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını ön plana çəkir [3].

Məzmun standartlarının müəyyənləşdirilməsi prosesində fənn üzrə əsas təlim nəticələrinin (hesablama prosedur bacarıqları, idraki dərketmə və problemlərin həlli) balansının gözlənilməsi diqqət mərkəzində saxlanılır.

Səriştəyönlü məzmuna əsasən qurulmuş təlim real həyat şəraitini əks etdirən zəngin məzmun kontekstində baş verməlidir, bunun üçün konstruktiv proses həyata keçirilməli və məktəbdənkənar mühitə də sirayət etməlidir. Burada əsas elementlər idraki təlim, real həyati problemlərin həlli ilə bağlı əməkdaşlığın əks etdirilməsi və məsələ həlli zamanı mümkün metod və üsullardan istifadənin təmin olunmasıdır. Məzmun sahəsi üzrə düşünmə prosesinin sürətləndirilməsində şagirdin nümayiş etdirdiyi səmərəlilik onun təlimi üçün ölçü rolunu oynayır. Belə yanaşmada əsas çətinlik təlimə nəzarəti şagirdə doğru yönəldərkən əmələ gəlir. Bu zaman təlimin xüsusiyyəti (situativ, interaktiv) və biliklərin təbiəti (perspektiv, şərti, ilkin və inkişaf etmiş) nəzərə alınaraq təlim məqsədləri şagirdlərin özlərinin hiss etdikləri ehtiyaclara görə təyin olunmalı, nəzərdə tutulan fəaliyyətlər onların yaşadığı dünya kontekstinə uyğun formalaşdırılmalı, şəxsiyyətyönlü zəruri qabiliyyətlərin aşılanması üçün şagirdlər yoldaşları ilə birgə işləməli, aparılan qiymətləndirmələr isə müntəzəmlik və irəliləyiş baxımından təhlilə əsaslanmalıdır.

Bir sözlə riyaziyyatın həyati əhəmiyyətli bir fənn kimi səriştəyönlü məzmununun müəyyənləşdirilməsi və düzgün tədrisi bü gün təhsilimizin qarşısında duran əsas problem kimi həllini gözləyir.

Şagirdlərin inkişafında istənilən riyazi nəticənin qazanılması problemindən söhbət gedərkən şagirdlərdə canlı, fəal idrak fəaliyyətini, mənimsənilən biliklərin tətbiqini təmin edən təlim metoddları və formaları, yolları xüsusilə vurğulanır. Axtarışlar metod və priyomların seçilməsi, təkmilləşdirilməsi, problem baxımından onların tətbiqi istiqamətində təşkil olunur, bu sahədə şagirdlərin inkişafının nəzərdə tutan təkliflər irəli sürülür. Təklif olunan metod və priyomların eksperimental və psixoloji əsaslandırılması olmadığından söhbət yalnız şagirdlərin əqli inkişafından gedir.

Təlim prosesi, o cümlədən riyaziyyatın səriştəyönlü təlimi prosesi hər bir şagirdin şəxsiyyət kimi formalaşmasına fəal təsir imkanına malikdir. Ona görə də şagirdlərin tərbiyəsi prosesinin idarə olunması onların tədris fəaliyyətinin, həm də fərdi və ictimai münasibətlərinin idarə olunmasıdır.

Riyaziyyat təlimi gənc nəslin düzgün tərbiyəsi probleminin ümumi məsələlərinin həlli üçün böyük əhəmiyyət kəsb edir. Riyaziyyat təlimində tərbiyə işinin müvəffəqiyyətini təmin edən aşağıdakı mühüm müddəaları nəzərə almaq lazımdır:

1) şagirdin tərbiyəsi aramsız, planauyğun surətdə aparılmalıdır. Tərbiyəyönlü epizodik tədbirin təşkilindən ciddi nəticələr gözləmək olmaz;

2) təlim prosesində tərbiyə işi elə təşkil olmalıdır ki, şagirdlər onu şəxsi əqidə və davranış norması kimi qəbul etsinlər. Nəzərə almaq lazımdır ki, bu işdə müəllimin şəxsi nümunəsi, onun dünyagörüşü və mənəvi keyfiyyətləri mühüm əhəmiyyət kəsb edir;

3) təlim prosesində tərbiyə tədricən özünütərbiyə ilə əvəz olunmalıdır.

Didaktikanın tələblərinə uyğun olaraq riyaziyyat təlimi şagirdlərin ümumi orta təhsil almasına xidmət etməklə, həm də onları tərbiyə etməlidir. Bu o deməkdir ki, riyaziyyat təlimi şagirdlərin bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsini təmin etməklə, həm də ümumi mədəniyyət formalaşdırmalıdır. İlk növbədə çalışmaq lazımdır ki, şagirdlər cəmiyyətin inkişafında riyaziyyatın rolunu qiymətləndirə bilsin, istehsalatda və texnikada riyaziyyatın fundamental əhəmiyyətə malik olduğunu anlaya bilsin. Ona görə də təlim prosesində müəllim riyaziyyatın metodoloji məsələlərinə xüsusi yer ayırmalı, şagirdlərdə elmi dünyagörüşünün formalaşması üçün bütün imkanlardan istifadə etməlidir. Təlim prosesində şagirdlərə izah etmək lazımdır ki, riyazi abstraksiyalar (ədəd, fiqur,

funksiya və s.) real aləmin obyekt və hadisələrinin elmi ümumiləşdirilməsinin nəticəsidir.

Riyaziyyat təliminin tarixi göstərir ki, riyaziyyat təlimi düzgün təşkil olunarsa o şagirdlərdə düzgünlük, doğruçuluq, dözümlülük, vətənpərvərlik və s. mənəvi keyfiyyətlərin formalaşmasında əvəzsiz xidmət göstərə bilər. Bu məqsədlə müəllim təlim prosesində riyaziyyatın tarixindən uyğun materiallara müraciət etməlidir (məsələn, Azərbaycan alimlərinin elmi nəticələrinin dünya elminə verdiyi töhfələrə həsr olunmuş söhbətlər aparılmalıdır).

Riyaziyyat təliminin müvəffəqiyyəti şagirdlərdə riyaziyyatı öyrənməyə dayanıqlı marağın tərbiyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Əgər müəllimin izahı məktəbliyə aydındırsa, onun həll etdiyi məsələ həm məzmununa görə, həm də həll üsuluna görə maraqlıdırsa, onda o məktəblinin özünün düşünməsi, ümumiləşdirməsi və nəticə çıxarması üçün real imkanlar yaratmış olar. Ona görə də təlim prosesində didaktikanın aşağıdakı əsas müddəalarına əməl etmək çox vacibdir. Təlimdə

– sadədən mürəkkəbə doğru,

– konkretdən ümumiyə doğru,

– konkret praktik nəticədən teorem və qaydalara doğru getmək lazımdır.

Şagirdin riyaziyyatı öyrənməyə marağının tərbiyə olunmasında onun yaradıcılıq və qələbə sevinci yaşamasının da əhəmiyyəti böyükdür. Ona görə də çalışmaq lazımdır ki, mümkün olan yerdə hər bir şagird bu hissi keçirsin. Bunlar təkrar olduqca şagirdin riyaziyyatı öyrənməyə marağı artar və bu maraq dərin və uzunmüddətli olar.

Məlumdur ki, bəşər tarixinin bütün inkişafı dövründə hər bir xalq öz dövlətini iqtisadi, siyasi, elmi-mədəni, hərbi və s. cəhətdən qüdrətli, güclü, yüksək sivilizasiyalı bir dövlət səviyyəsində görmək istəmiş və hazırda da bu istiqamətdə var gücləri ilə ardıcıl mübarizə aparmaqdadır. Təbii ki, öz müstəqilliyinə yenidən nail olmuş Azərbaycan xalqı da bu sahədə səylə çalışmaqdadır. Aydındır ki, belə yüksək, beynəlxalq əhəmiyyətli inkişaf səviyyəsinə çatmaq üçün hər bir xalqın məxsus olduğu dövlətin qüdrətli, güclü maddi, iqtisadi, elmi-texniki bazası, yüksək elmi biliyə malik olan kadr potensialı və s. olmalıdır. Bütün bu nailiyyətləri əldə etmək üçün isə dövlətin müasir inkişafa, tərəqqiyə doğru aparan güclü milli təhsil konsepsiyası və onu həyata keçirən savadlı, bilikli, yüksək təhsilli mütəxəssislərinin, kadr potensialının olması olduqca vacibdir.

Ümummilli liderimiz Heydər Əliyev bu barədə çox gözəl demişdir: "Təhsil millətin gələcəyidir". Ona görə də, müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər öz inkişaf səviyyəsini qoruyub saxlamaq, həmçinin daha yüksək inkişafa çatmaq üçün ilk növbədə millətin təhsilinin, elminin, tərəqqisinin qayğısına qalırlar və qalmaqdadırlar. Burada müasir Azərbaycan dövlətinin, onun rəhbərliyinin milli təhsilə, elmin tərəqqisinə diqqət və qayğısını xüsusilə qeyd etmək lazımdır [1].

Müasir əmək bazarı şəraitində və sürətlə dəyişən informasiya məkanında müstəqil həyata qədəm qoyan bir gəncin səmərəli və rəqabətə davamlı bir işçi olması zəruridir. O, fərdi və kollektiv problemlərini həll edə bilən, yaradıcı, müstəqil, məsuliyyətli, yaxşı kommunikasiya bacarıqlarına malik şəxs olmalıdır. Onun yeni bilikləri mənimsəmək, lazımlı məlumatları tapmaq və seçmək bacarığı olmalıdır.

Bütün bu keyfiyyətlər təhsilin fərdi və sosial mənası hesab edilən, riyaziyyat tədrisində səriştəyönlü yanaşmadan istifadə etməklə uğurla formalaşdırıla bilər.

Şagirdlərdə əsas səriştələr – universal vahid bilik, bacarıq və qabiliyyətlər sistemi, müstəqil fəaliyyət təcrübəsi və şəxsi məsuliyyət formalaşır.

Səriştəyönlü yanaşmadan istifadə edərək şagirdin real obyektlərlə münasibətdə məhsuldar və şüurlu fəaliyyət həyata keçirməsi üçün riyazi təhsilin onun şəxsi təcrübəsi və ehtiyacları ilə əlaqəli bilik və bacarıqlarla yüklənilməsidir.

***Vəzifələ*r**:

– Məqsədlər təyin etmək və onları əldə etmək üçün lazım olan fəaliyyəti planlaşdırmağı öyrətmək.

– Mövcud mənbələrdən (məlumat kitabçaları, dərsliklər, lüğətlər, media) istifadə edərək lazımi məlumatları tapıb-çıxarmağı və onları ötürməyi öyrətmək.

– Komandada işləmək bacarığını təkmilləşdirmək, fikirlərini ifadə etmək və fikirlərini məntiqi şəkildə əsaslandırmağı öyrətmək.

– Ümumi nəticənin əldə olunmasına töhfə vermək.

– Kiçik qruplara rəhbərlik edərkən öz üzərinə məsuliyyət götürməyi öyrətmək.

– Müstəqil yaradıcılıq bacarıqlarını aşılamaq.

– Danışıqda riyazi terminlərdən düzgün şəkildə istifadə etməyi öyrətmək.

– Riyazi bilik və bacarıqları real şəraitdə tətbiq etməyi öyrətmək.

– Özünənəzarət və qarşılıqlı nəzarət bacarıqlarının aşılanması

***Səmərəlilik***:

– Uşaqlar praktik fəaliyyətlərdə riyaziyyat dərslərində əldə olunan bilik, bacarıq və qabiliyyətləri istifadə edirlər.

– Texnikumda, peşə məktəbində və ya ixtisaslaşdırılmış sinifdə təhsili davam etdirməyə imkan verən bacarıqlar formalaşır.

– Uşaqlar fəaliyyətin kommunikativ, analitik, layihələndirmə, yaradıcılıq növlərini mənimsəyirlər.

– Şagirdlər icbari təhsilə müvafiq minimal nəticələrindən riyaziyyat, fizika siniflərində, eləcə də informatikanın daha dərindən öyrədildiyi siniflərdə təhsilin davam etdirilməsinə imkan verən təkmilləşmiş səviyyələrə kimi müxtəlif mürəkkəblik səviyyəsində riyazi bilik və bacarıqları mənimsəyirlər.

– Şagirdlər riyaziyyatı hər kəsin öz fikrini ifadə edə biləcəyi fənn kimi qəbul edirlər.

– Müəllif ədəbiyyatı ilə işləmək bacarığı əldə edilir, zəruri ölçülər hazırlanır, mövcud alətlər seçilir, nəticələr təhlil edilir.

– Şagirdlər sinif yoldaşlarının fəaliyyətlərini (məsləhətçilərin köməyi ilə) düzgün qiymətləndirirlər.

– Qrupda uşaqların davranışı dəyişir: başqalarının fikirlərini dinləməyə, çəkinmədən öz fikirlərini ifadə etməyə başlayırlar.

Təhsildə səriştəyönlü yanaşma "biliyin mənimsənilməsi" konsepsiyasının əksinə olaraq, əldə edilən məlumatların həcminə deyil, şagirdlərin peşəkar, şəxsi və sosial həyatlarında qarşılaşdıqları situasiyalarda səmərəli şəkildə hərəkət etmələrinə imkan verən müxtəlif növ bacarıqlar əldə etməsinə əsaslanır. Əsas diqqət əvvəlcədən müvafiq vasitələrin işlənib hazırlanmasının qeyri-mümkün olduğu yeni, qeyri-müəyyən, problemli vəziyyətlərdə hərəkət etməyə imkan verən bacarıqlara verilir. Onları bu kimi vəziyyətlərin həlli prosesində tapmaq və tələb edilən nəticələri əldə etmək lazımdır [3].

Beləliklə, səriştəyönlü yanaşma bütün məktəb təhsilinin (o cümlədən fənn üzrə təhsilin) tətbiqi və praktik xarakterini gücləndirir.

Müəllimin rolu da əsaslı şəkildə dəyişir. O, dərsliklə birlikdə şagirdə ötürməyə çalışdığı "obyektiv biliklər"in daşıyıcısı olmaqdan çıxır. Onun əsas vəzifəsi şagirdləri təşəbbüs göstərməyə və müstəqil şəkildə hərəkət etməyə təşviq etməkdir. O, hər bir şagirdin öz üsulları və maraqlarına uyğun olaraq həyata keçirə biləcəyi müstəqil fəaliyyətini təşkil etməlidir. Əslində, müəllim hər bir şagirdin öz maraq və istəklərini həyata keçirmə prosesində, səylərini tətbiq etmə, məsuliyyət götürmə və qarşıya qoyulan məqsədləri əldə etmək üçün addımlar atma prosesində müəyyən səriştələr üzrə intellektual və digər bacarıqlarını inkişaf etdirmək üçün "zəruri inkişaf mühiti"ni yaradır.

**Problemin aktuallığı**. bu gün məktəb proqramında öyrədilən bütün nəzəri biliklərin səriştələrə çevrilməsi və şagird şəxsiyyətinin formalaşmasına xüsusi təsirə malik olması diqqət mərkəzində dayanan ən vacib məsələlərdən biridir.

**Problemin yeniliyi**. Məqalədə səriştəyönlü yanaşmanın "biliyin mənimsənilməsi" konsepsiyasının əksinə olaraq, əldə edilən məlumatların həcminə deyil, şagirdlərin peşəkar, şəxsi və sosial həyatlarında qarşılaşdıqları situasiyalarda səmərəli şəkildə hərəkət etmələrinə imkan verən müxtəlif növ bacarıqlar əldə etməsinin vacibliyi əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti** – nəzəri biliklər praktik olaraq tətbiq edilmədikdə və səriştələrə çevrilmədikdə həyatımız üçün heç bir əhəmiyyət kəsb etmir, müəyyən müddətdən sonra yaddaşımızdan silinir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Kurikulum, 2013, №1
2. Əlizadə X.Ş. Riyaziyyat tədrisi prosesində şagirdlərin variasiyalı təfəkkürünün inkişaf etdirilməsi // Məktəbəqədər və ibtidai təhsil, 2010, № 2, s. 58-63
3. Mehrabov A., Kərimova S., Səriştəyə əsaslanan şəxsiyyətyönümlü pedaqoji təhsildə keyfiyyətin idarəolunma modeli // Kurikulum, 2014, №3
4. Novruzov Q., Abbasov Ə., "Yaddaş məktəbi"ndən "Düşüncə və təfəkkür məktəbi"nə / Kurikulum, 2014, № 1

5. Rzayev M.T. Məsələ həlli vasitəsilə şagirdlərin yaradıcı təfəkkürünün inkişafı // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2010, № 3. s. 85-89

**E-mail:** Letife-celilova83@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **F.A. Rüstəmov**,
*ped.ü.fəls.dok., dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub**: 20.04.2022